# HACIQABUL

№ 22 (656)

20 oktyabr 2016-cı il

Hacıqabul rayon İcra Hakimiyyətinin qəzeti


# 9 ayın yekunları müzakirə olundu

## 2016-cı ilin 9 ayının yekunları müzakirə olundu, görülən işlərdən danışıldı, qarşıda duran vəzifələr müəyyənləşdirildi






***Oktyabrın 18-də rayon İcra Hakimiyyəti Başçısı Aparatında həm 2016-cı ilin 9 ayı ərzində Hacıqabul rayonunun sosial-iqtisadi inkişafının yekunlarına, həm də Dövlət Müstəqilliyinin 25 illik yubileyinə həsr olunmuş tədbir keçirildi.***

Yığıncaqda RİHB-nın şəhər, qəsəbə, kənd İƏD üzrə nümayəndələri rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri və ayrı-ayrı idarə, müəssisə, təşkilat rəhbərləri, bələdiyyə sədrləri, sahibkarlar iştirak edirdi.

Tədbir başlamazdan öncə rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarov və bir qrup tədbir iştirakçısı ulu öndər, müstəqilliyimizin banisi Heydər Əliyevin abidəsini ziyarət edərək abidə önünə gül dəstələri düzdülər.

Sonra tədbir rayon İcra Hakimiyyətinin akt zalında davam etdirildi.

Tədbiri açan rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarov öncə dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümü münasibəti ilə tədbir iştirakçılarını təbrik etdi. Müstəqilliyimizin əldə olunmasında xalqımızın keçdiyi keşməkeşli yollardan danışdı. Qeyd etdi ki, müstəqilliyimizin yaranmasında ən böyük zəhməti ulu öndər Heydər Əliyev çəkib. Onun siyasi müdrikliyi və qətiyyəti sayəsində ölkəmizdə vətəndaş həmrəyliyi bərqərar oldu, əmin-amanlıq və sabitlik bərpa olundu. Vurğuladı ki, çox sevindirici haldır ki, ulu öndərimizin ideyaları bu gün yaşayır və onun siyasi kursu ölkə Prezidenti İlham Əliyev tərəfindən yeni məzmun və keyfiyyətlə davam etdirilir. Müstəqil respublikamız günü-gündən inkişaf və tərəqqi edir, dünyanın ən qüdrətli dövlətlərindən birinə çevrilir.Bir daha xalqımızı və hacıqabulluları müstəqillik günü münasibəti ilə təbrik edən RİH Başçısı Əhməd Muxtarov 2016-cı ilin 9 ayında rayonda görülən işlərdən, qarşıda duran vəzifələrdən danışaraq tədbir iştirakçılarının nəzərinə çatdırdı ki, oktyabr ayının 7-də Respublika Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmiş, dövlətimizin başçısı öz nitqində 9 ayın yekunlarını təhlil edərək, ilin sonuna qədər görüləcək işlər haqqında ətraflı məlumat vermişdir.

Dünya iqtisadiyyatı üçün çox ağır olan 2016-cı ildə davam edən böhranlı vəziyyətin respublikamızdan da yan keçmədiyindən, neftin qiymətinin kəskin şəkildə düşməsindən, əksər ölkələrdəki siyasi və hərbi böhrandan danışan ölkə başçısı qeyd etmişdir ki, dünya iqtisadiyyatında böhranlı vəziyyətin yaşandığı bir zamanda ölkəmiz öz yolu ilə gedir, öz iradəsini yerinə yetirir.

Dövlət başçımızın qeyd etdiyi kimi, bizim üstünlüyümüz ondan ibarətdir ki, həmişə öz yolumuzla gedirik və siyasətimizi aparırıq, heç kimin sözü ilə oturub-durmuruq.

Ona görə də bu gün Azərbaycanda inkişaf və sabitlik var.

Məhz bu sabitliyin nəticəsidir ki, ölkəmiz üçün çox böyük əhəmiyyət daşıyan referendum keçirmişik. Referendum bir daha sübut etdi ki, xalqımız dövlətimizin apardığı siyasəti dəstəkləyir və bu siyasətin alternativi yoxdur.

İclasda qeyd edilmişdir ki, ilin 9 ayında ölkəmizdə dövlət investisiyalarının həcmi azalmış, tikinti sektoruna az sərmayə qoyulmuşdur. Bu, müəyyən qədər iqtisadi tənəzzülə gətirib çıxarmışdır. Ancaq sevindirici hal ondan ibarətdir ki, sənayemiz artmışdır. Doqquz ayda sənayemizin qeyri neft sektoru 3,6 faiz, kənd təsərrüfatı 2,4 faiz artmışdır. Dövlət başçımızın vurğuladığı kimi kənd təsərrüfatı sahəsindəki artım getdikcə yüksələcəkdir. Çünki kənd təsərrüfatı sahəsində apardığımız işlər yaxın gələcəkdə daha böyük həcmdə nəticə verəcəkdir.

Cari ilin 9 ayında nəzərdə tutulan əsas sosial layihələr icra edilmişdir. Bu müddətdə 29 məktəb tikilib, 485 məktəbdə təmir işləri aparılıb. 33 səhiyyə obyekti inşa olunub, tikinti edilib. Böyük yol, içməli su, infrastruktur layihələr icra edilibdir.

Doqquz ayda ölkədə 154 min iş yeri yaradılmışdır ki, onların 36 mini daimi iş yerləridir.

Bu gün beynəlxalq tədbirlər məkanına çevrilən Azərbaycan idman sahəsində də uğurlu nəticələr əldə etmişdir. İdmançılarımız Rio Yay Olimpiya Oyunlarında 18 medal qazanmışlar. Medalların sayına görə idmançılarımız müsəlman aləmində birinci, MDB məkanında ikinci, Avropada 7-ci, dünyada 18-ci yerdə dayanırlar.

RİH Başçısı 2016-cı ilin 9 ayında bütün sahələrdə əldə olunan nailiyyətlərin məhz Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin məntiqi nəticəsi olduğunu nəzərə çatdırdı. Qeyd etdi ki, iqtisadi islahatlar və Dövlət Proqramının icrası ilə bağlı 2016-cı ilin 9 ayında rayonda gördüyümüz işlər, həyata keçirilmiş tədbirlər və rayonun sosial-iqtisadi göstəriciləri qənaətbəxş olmuşdur.

Sonra 2016-cı ilin 9 sayında Hacıqabul rayonunun sosial-iqtisadi inkişafının yekunları barədə RİHB-nın məruzəsi dinlənildi.

Məruzədə qeyd edildi ki, 2016-cı ilin 9 ayında rayon üzrə ümumi məhsul buraxılışının həcmi 168 346.9 min manat olmuşdur ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 2 307.2 min manat və ya 1,4 % çoxdur.

Məhsul buraxılışı həcmində qeyri-dövlət sektorunun payı 67,2 % təşkil etmişdir ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 3,1 % çoxdur. Bu ilin 9 ayında kənd təsərrüfatı məhsulu buraxılışı həcmi 101534,4 min manat, sənayedə məhsul buraxılışının həcmi 2995.8 min manat, ticarətdə məhsul buraxılışının həcmi 54348,0 min manat olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatında 8,8 %, sənayedə 0,1 %, ticarətdə 17,6 % artım müşahidə edilmişdir.

2016-cı ilin 9 ayında Hacıqabul rayonunda iqtisadiyyatın bütün sahələrinə yönəldilmiş əsas kapitala investisiyaların ümumi həcmi 6799.8 min manat, o cümlədən tikinti quraşdırma işlərinin həcmi 6533.3 min manat olmuşdur.

2016-cı ilin məhsulu üçün 13 793 hektar sahədə taxıl əkilmişdir ki, bu da ötən ilin taxıl əkini ilə müqayisədə 330 hektar artıqdır. Taxıl əkininin 7130 hektarını buğda, 6633 hektarını isə arpa əkini təşkil etmişdir. 13 793 hektar taxıl sahəsindən 47 310 ton məhsul əldə edilmişdir ki, bu da ötən ilin məhsulu ilə müqayisədə 3 329 ton və ya 7,6% çoxdur. İstehsal olunmuş taxılın 25 922 tonunu buğda, 21 388 tonunu arpa təşkil edir. Bir hektara düşən məhsuldarlıq 0,1 sentner artaraq 34.3 sentnerə çatmışdır.

İlin 9 ayında 1572 hektar sahədə bostan, 778 hektar sahədə tərəvəz, 376 hektar sahədə qarğıdalı, 40 hektar sahədə kartof, 526 hektar sahədə pambıq, 632 hektar sahədə yonca, 160 hektar sahədə şəkər çuğunduru, 40 hektar sahədə soya olmaqla cəmi 4094 hektar sahədə yazlıq əkin aparılmışdır ki, bu da keçən ilin müvafiq dövrünün yazlıq əkini ilə müqayisədə 437 hektar çoxdur. Qeyd etmək istərdim ki, şəkər çuğunduru və soyanın rayon ərazisində əkini ilk dəfə olaraq həyata keçirilmişdir.

İlin 9 ayında 20 096 ton tərəvəz, 8785 ton meyvə, 439 ton kartof istehsal olunmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə tərəvəz istehsalı 12 ton, meyvə istehsalı 3 ton, kartof istehsalı 11 ton çox olmuşdur.

Rayonda heyvandarlıq məhsulları istehsalında da artım qeydə alınmışdır. Hesabat dövründə süd istehsalı 15 ton artaraq 12 385 tona, ət istehsalı 744 ton və ya 11,5 % artaraq 7234 tona, yumurta istehsalı 4866 min ədəd və ya 2,1 % artaraq 235 820 min ədədə çatmışdır. Rayon üzrə iribuynuzlu heyvanların baş sayı 507 baş və ya 1,3 % artaraq 38 264 başa, xırda buynuzluların sayı isə 4948 baş və ya 0,7 % artaraq 135 486 başa çatmışdır.

"Aqrolizinq" vasitəsilə bu ilin 9 ayında kənd əməkçilərinə 345,3 ton müxtəlif növ mineral gübrələrin və 260 litr herbisidin 70 % güzəştlə satışı həyata keçirilmişdir.

2007-ci ildə tikintisinə başlanılmış, mənbəyi Ağsu rayonu ərazisində Yuxarı Şirvan kanalının qolundan su götürən ümumi uzunluğu 53,95 km və su keçirmə qabiliyyəti 5 kub metr/san olan Hacıqabul magistral beton kanalının 28,1 km-lik hissəsi, Padar magistral beton kanalın 12,5 km-i tikilərək başa çatdırılmışdır. 5 km-ə yaxın təsərrüfatdaxili kanallar da tikilərək istismara verilib. Növbəti mərhələdə kanalın Qarasu və Muğan qollarının tikintisi və rayonun Padar-Qarasu-Muğan ərazisində 5560 hektar yararlı sahələrdə kompleks meliorasiya işlərinin aparılması nəzərdə tutulur. Artıq Hacıqabul Magistral kanalından ayrılan 7,1 km-lik Qarasu magistral kanalının tikinti işlərinə başlanılmışdır. Bu kanal vasitəsilə Padar-Qarasu ərazilərində 2000 hektara yaxın həyətyanı və əkin sahələrinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 03 aprel 2013-cü il tarixli sərəncamı ilə yaradılmış 1625 hektar iri əkinçilik təsərrüfatının və 440 hektar sahədə əkilmiş pambığın suvarma suyu ilə təminatı bu kanal vasitəsilə həyata keçirilmişdir.

Cari ildə 526 ha sahədə pambıq əkini həyata keçirilmiş, hazırda pambıq yığımı mütəşəkkil qaydada həyata keçirilir. Növbəti ildə pambıq əkininin 1200 hektara çatdırılması yönündə fəaliyyətimizi davam etdirməliyik.

Rayonda baramaçılığın inkişafı da qarşımızda duran prioritet məsələlərdən biridir. Cari ildə baramaçılığın inkişaf etdirilməsi məqsədilə 11000-dən çox tut (çəkil) ağaclarının əkilməsi nəzərdə tutulmuşdur.

Əhalinin həyat səviyyəsinin göstəricisi olan orta aylıq əmək haqqı ötən ilin müvafiq dövrü ilə müqayisədə 8 manat artaraq 297.4 manat təşkil etmişdir. Rayon əhalisinin pul gəlirləri ötən dövrün müvafiq dövrü ilə müqayisədə 15 628 min manat və ya 7,6 % artaraq 220 253 min manata çatmışdır. Məşğul əhalinin sayı 700 nəfər artaraq 35.9 min nəfər olmuşdur. Məşğul əhalinin 5.6 min nəfəri və ya 15,6 %-i dövlət sektorunda, 30.3 min nəfəri və ya 84,4 %-i qeyri-dövlət sektorunda çalışır.

Cari ilin 9 ayında rayon Məşğulluq Mərkəzinə 2684 nəfər işaxtaran kimi müraciət etmiş, işə düzələnlər 737 nəfər olmuşdur. 187 nəfərə işsizlik statusu verilmişdir. Hesabat dövründə rayon üzrə 1145-i daimi olmaqla cəmi 1240 yeni iş yeri açılmışdır.

Hacıqabullular möhtərəm Prezidentimizin rayonumuza göstərdiyi diqqət və qayğıya özlərinin yüksək əmək və siyasi fəallığı ilə cavab verərək rayonun sosial-iqtisadi inkişafının sürətləndirilməsi, əhalinin rifahının daha da yaxşılaşdırılması istiqamətində bundan sonra da ardıcıl işlər həyata keçirəcəklər.

Məruzə ətrafında rayon Təhsil Şöbəsinin müdiri Şükür Məmmədov, rayon Mərkəzi Xəstəxanasının baş həkimi Beydulla Qarayev, Qarasu Bələdiyyəsinin sədri İslam Hüseynov, Meyniman kənd İƏD üzrə nümayəndə Cavid Vəliyev çıxış etdilər.

Hesabat yığıncağında məruzə və çıxışlar dinlənilərək RİH Başçısının 2016-cı ilin 9 ayında gördüyü işlər qənaətbəxş hesab edildi. Müvafiq qərar qəbul olundu.

***"Hacıqabul"***

# "Ağ qızıl"ın şöhrəti özünə qayıdır

## *Hacıqabullular elin əvəzsiz sərvətinin yığılmasında mütəşəkkillik göstərirlər*

***Hacıqabul rayonu respublikamızda pambıq əkini baxımından ənənəsi olan rayonlardan biridir. Bu ənənə uzunmüddətli fasilə nəticəsində pozulsa da, bu ildən yenidən dirçəlməyə başladı. Atalar yaxşı deyib: su gələn arxa bir də gələr. Hacıqabullular uzun müddət zəhmətkeş insanlarına həsrət qalan pambıq tarlalarına geri döndülər. Susuzluqdan şoranlaşıb çat-çat olmuş ana torpaq aparılan şumlama, suvarma, meliorativ tədbirlərdən sonra çana gəldi.***





*İnsanlar yenidən pambıq tarlalarına qayıdırlar*





*İtirilmiş sərvət geri qaytarılır*

Qeyri-neft sektorunun, xüsusən də kənd təsərrüfatına bağlı ənənəvi sahələrin inkişaf etdirilməsi istiqamətində atılan addımlar artıq müsbət nəticəsini verməkdədir. Bu səmərəlilik hər regionun abı-havasından asılı olaraq əziyyətə sinə gərməyi bacaran, əlinin qabarına, alnının tərinə güvənən, əldə etdiyi məhsulun mənfəətini görüb onun sevincini yaşaya bilən hər kəs üçün var. Özünəməxsusluğu, zəhmətkeş insanları ilə seçilən Hacıqabul rayonu da belə rayonlardandır.



*Hər gün tonlarla pambıq məntəqələrə yola salınır*

Hələ ilin əvvəlində ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən pambıqçılığın inkişaf etdirilməsinin mühüm vəzifə kimi qarşıya qoyulmasından sonra bu çağırışa ilk səs verənlərdən biri də hacıqabullular oldu. Həmin vəzifələrin icrası məqsədilə rayonda əməli işlər görülməyə başladı. Pambıq əkini məqsədilə 550 hektara yaxın sahədə şum aparıldı. Keyfiyyətli toxumun əkilməsi, aqrotexniki qulluğun göstərilməsi səmərəsini verdi. Hazırda sahələrdə pambıq yığımı davam edir. Qəti fikir ondan ibarətdir ki, son qozaya kimi bütün məhsulun toplanması həyata keçirilməlidir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə pambıqçılıqla bağlı keçirilən respublika müşavirəsində qarşıya qoyulan məqsəd pambıqçılığın hərtərəfli inkişaf etdirilməsindən, əkin sahələrinin genişləndirilməsindən ibarət oldu. Bundan ruhlanan Hacıqabul zəhmətkeşləri perspektiv üçün daha səmərəli addımlar atılmasına qərar veriblər. Məqsəd ondan ibarətdir ki, növbəti il üçün 1200 hektar sahədə pambıq əkilsin.

Bu günə kimi tarlalardan 270 ton pambıq yığılıb. Sahələrin əsas hissələri maşınla yığılmışdır. Rayonda pambıqla bağlı işlərə başlandığı gündən təxminən 500 nəfərdən çox insanın məşğulluğu təmin olunub. Bura əkin, becərmə, suvarma, yığım, bir sözlə bütün proseslər daxildir. İnsanların sahələrdə istirahət və yemək saatlarında dincəlməsi üçün məntəqələrdə normal şərait yaradılmış, burada rayonun təcili tibb stansiyasının tibb personalı onların xidmətində dayanır, həmçinin Muğan Regional Dövlət Yanğın Nəzarəti İdarəsinin əməkdaşları yığım zamanı yanğına qarşı təbliğatın aparılması üçün mütəmadi olaraq sahələrdə olur.

Rayonun Padar və Qarasu kəndləri ərazisində ilk dəfədir ki, pambıq əkilib. (440 hektar sahədə ) Xam torpağı olan bu yerlərdə əla çıxış alınıb. Havaların soyuq və yağmurlu keçməsinə baxmayaraq bu günə nəticələr qənaətbəxşdir.

Ümumilikdə rayonda pambıqçılığın tarixi xeyli əvvəllərə gedib çıxır. Zamanında böyük həcmdə, xüsusilə rayonun Kürqırağı kəndlərində pambıq əkinləri həyata keçirilib. Lakin son 10 ildə pambığa olan laqeyd münasibət insanların bu sahəyə olan münasibətini dəyişib. Xüsusən də əkilən məhsulun maya dəyərinin aşağı olması, satış bazarının məhdudluğu problemlər yaradıb. Bu gün isə münasibətin yaxşı tərəfə köklü şəkildə dəyişməsi həm mütəxəssislər, həm də istehsalçılar tərəfindən müsbət hal kimi dəyərləndirilir. Pambıqçılığın inkişafı minlərlə insanın işə cəlb olunması, insanların maddi problemlərinin aradan qalxması, ərzaq təhlükəsizliyinin həll olunması deməkdir. Pambıqçılığın inkişafının ərzaq təhlükəsizliyi ilə əlaqələndirilməsinin səbəbi yığılan pambığın pula, pulun isə ərzağa çevrilməsi deməkdir. Hacıqabullular əmindirlər ki, pambıq onlar üçün hələ uzun zamanlar həm yaxşı gəlir, həm də təknə dolusu çörək olacaq.

***X.Hüseynova.***
***Fotolar: R.Mirzəyevindir***

## *Gənclər çağırışa yollanırlar*

# Oğullar əsgər gedir

***Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin 9 sentyabr 2016-cı il tarixli sərəncamı ilə gənclərin hərbi xidmətə çağırılması oktyabrın 1-dən etibarən ölkə ərazisində, o cümlədən Hacıqabul rayonunda mütəşəkkilliklə həyata keçirilir.***

Bu günlərdə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Hacıqabul rayon şöbəsinin rəisi, mayor Nurlan Abbasov ilə görüşdük, növbəti çağırışın gedişatı barədə fikirlərini bizimlə bölüşdü:

-Cənab Prezident Ali Baş Komandanımız İlham Əliyev ölkəmizin müdafiə qüdrətinin möhkəmləndirilməsi, ixtisaslı zabit kadrları ilə təmin edilməsinə böyük diqqət və qayğı göstərir. Gənclərin səfərbərlik və hərbi xidmətə çağırışı ilə əlaqədar şöbəmizin zabitləri Prezidentin məlum sərəncamına əsasən oktyabrın 1-də rayon ərazisində çağırış komissiyasını operativ şəkildə həyata keçirirlər. Şöbənin hərbi çağırış bölməsinin rəisi mayor Ərfan Nəbiyev, bölmənin zabiti, kapitan Nadir Əzizov oktyabrın 30-dək davam edəcək çağırışa cəlb olunmuş gənclərimizlə vətənpərvərlik ruhunda, onlarda Vətənə məhəbbət hissinin aşılanması, artırılması barədə söhbətlər aparırlar. Çağırış yaşı tamam olmuş gənclərdən Ruslan Ağamalızadə (Rəncbər kəndi), Anar Gözəlov (Qarasu kəndi), Şəhriyar Hüseynov (I Udulu), Orxan Ələkbərov, Aqil Əliyev (Talış qəsəbəsi), Xələf İsmayılov, Rəfail Əliyev (Hacıqabul şəhəri), İsmayıl Manafov (Navahı kəndi) çağırışa, şərəfli hərbi xidmət borcunu yerinə yetirməyə həvəslə yollanmış, Vətənə nümunəvi xidmət edəcəklərinə and içmişlər.

Yolunuz uğurlu olsun, əziz gənclərimiz!

***Nazim Fətixanoğlu***

*Təhlillər nə göstərir*

# Hacıqabul rayon iqtisadiyyatında məhsul buraxılışının həcmi

***İstər 2015-ci ildə, istərsə də 2016-cı ilin birinci yarısında Hacıqabul rayonunun iqtisadiyyatının əksər sahələri üzrə məhsul buraxılışının həm fiziki, həm də faktiki qiymətlərlə həcmində qabarıq və nəzərəçarpan artım hiss olunmuşdur.***

2015-ci ildə rayonda iqtisadiyyatın bütün sahələri üzrə məhsul buraxılışının həcmi faktiki qiymətlərlə 209928,2 min manat təşkil etmişdir.Əvvəlki illə müqayisədə məhsul buraxılışının fiziki həcm indeksi 89,4 faiz təşkil etmişdir.Əvvəlki illə müqayisədə bütün sahələr üzrə məcmu qiymət indeksi isə 102,3 faiz olmuşdur.Qeyd etmək lazımdır ki, 2015-ci ildə Hacıqabul rayonu üzrə əvvəlki ilin qiymətlərilə məhsul buraxılışının həcmi 205118,1 min manat təşkil etmişdir.

2015-ci ildə rayonda məhsul buraxılışının ümumi həcmində əvvəlki illərdə olduğu kimi əsas yeri kənd təsərrüfatı sektoru tutmuşdur.Belə ki, ötən ildə kənd təsərrüfatı sektorunun rayon üzrə məhsul buraxılışının həcmində payı 56,7 faiz və ya 119056,2 min manat olmuşdur.Əvvəlki illə müqayisədə faktiki qiymətlərlə kənd təsərrüfatında məhsul buraxılışının həcmi 4,0 faiz artmış, ötən ilə müqayisəli qiymətlərlə fiziki həcm indeksi 102,4 faiz, məhsulun əvvəlki ilə faktiki qiymət indeksi isə 101,6 faiz təşkil etmişdir.

Rayon iqtisadiyyatının xarakterik aparıcı sahələrindən olan ticarət xidmətləri və iaşə sektorunda 2015-ci ildə məhsul buraxılışının faktiki qiymətlərlə həcmi əvvəlki illə müqayisədə 5462,0 min manat və ya 10,3 faiz artaraq 58610,8 min manat olmuşdur.2015-ci ildə iqtisadiyyatın bu sektorunda məhsulun qiymət indeksi 105,4 faiz, fiziki həcm indeksi isə 104,6 faiz təşkil etmişdir.Rayon iqtisadiyyatında ticarət və iaşə sektorundakı məhsul buraxılışının payı 27,9 faiz təşkil etmişdir.

2015-ci ildə rayon iqtisadiyyatının sənaye sektorunda da məhsul buraxılışı həcmində artım hiss olunmuşdur.Belə ki, il ərzində rayon sənayesində faktiki qiymətlərlə məhsul buraxlışının həcmi əvvəlki illə müqayisədə 2,8 faiz və ya 113,3 min manat artaraq 4154,0 min manat olmuşdur.Sənayedə məhsul buraxılışının fiziki həcm indeksi 103,2 faiz, qiymət indeksi isə 99,6 faiz təşkil etmişdir.Rayon iqtisadiyyatında formalaşan məhsul buraxılışı həcmində sənaye sferasının payı 2,0 faiz qeydə alınmışdır.

2015-ci ildə rayonda tikinti sektorunda faktiki qiymətlərlə 24417,9 min manatlıq məhsul buraxılışı qeydə alınmışdır.Rayon iqtisadiyyatında tikinti sektorunun payı 11,6 faiz olmuşdur.Əvvəlki illə müqayisədə faktiki qiymətlərlə tikinti sektorunda məhsul buraxılışı 55,0 faiz azalmışdır.Tikinti sektorunda məhsulun əvvəlki illə müqayisədə qiymət indeksi isə 100,0 faiz təşkil etmişdir.

Rayonumuzun iri nəqliyyat xətlərinin qovşağında yerləşməsi, nəqliyyat sektorunun xarakterik sahəyə çevrilməsinə səbəb olmuşdur. 2015-ci ildə rayonda nəqliyyat sektorunda faktiki qiymətlərlə 3016,0 min manatlıq məhsul buraxılışı qeydə alınmışdır.Əvvəlki illə müqayisədə nəqliyyatda məhsul buraxılışının həcmi 144,4 min manat və ya 5,0 faiz artmışdır. Əvvəlki ilə nisbətən nəqliyyatda məhsul buraxılışının fiziki həcm indeksi 105,0 faiz, qiymət indeksi isə 100,0 faiz təşkil etmişdir.Rayon iqtisadiyyatında nəqliyyat sektorundakı məhsul buraxılışının payı 1,5 faiz olmuşdur.

İl ərzində rayonda rabitə sferasında faktiki qiymətlərlə 673,3 min manatlıq məhsul buraxılışı qeydə alınmışdır.Bu isə rayon üzrə ümumi məhsul buraxılışının 0,3 faizini təşkil edir. 2015-ci ildə rabitə sferasında ötən ilə nisbətən məhsulun fiziki həcm indeksi 112,1 faiz, qiymət indeksi isə 95,1 faiz olmuşdur.

2015-ci ildə Hacıqabul rayonunda ümumilikdə iqtisadiyyatın istehsal sahələrində 147628,1, xidmət sahələrində isə 62300,1 min manatlıq məhsul buraxılışı qeydə alınmışdır. Rayon iqtisadiyyatında formalaşan məhsul buraxılışı həcmində istehsal sahələrinin payı 70,3, xidmət sahələrinin payı isə 29,7 faiz təşkil etmişdir.

2015-ci ildə rayonda adambaşına düşən məhsul buraxılışının həcmi 2921,6 manat, o cümlədən, kənd təsərrüfatında 1656,9, sənayedə 57,8, tikintidə 339,8, nəqliyyatda 42,0, rabitədə 9,4, ticarət və iaşə sektorunda isə 815,7 manat olmuşdur.

2016-cı ilin birinci yarısında rayonda iqtisadiyyatın bütün sahələri üzrə ümumilikdə 101388,5 min manatlıq məhsul buraxılışı qeydə alınmışdır.Ötən ilin müvafiq dövrü ilə müqayisədə faktiki qiymətlərlə məhsul buraxılışının fiziki həcm indeksi 94,3 faiz, qiymət indeksi isə 100,2 faiz təşkil etmişdir.Rayon üzrə məhsul buraxılışının ümumi həcmində kənd təsərrüfatının payı 59,5 faiz, sənayenin payı 2,1 faiz, tikintinin payı 3,1 faiz, nəqliyyat sektorunun payı 1,4 faiz, rabitə sektorunun payı 0,3 faiz, ticarət xidmətinin payı isə 33,6 faiz olmuşdur.Başqa sözlə, 2016-cı ilin yanvar-iyun aylarında rayon iqtisadiyyatının kənd təsərrüfatı sahəsində 60327,2, sənaye sahəsində 2111,1, tikinti sahəsində 1467,1, rabitə sahəsində 312,7, ticarət xidmətləri sahəsində isə 34080,0 min manatlıq məhsul buraxılışı qeydə alınmışdır.Ötən ilin müvafiq dövrü ilə müqayisədə məhsul buraxılışının fiziki həcm indeksi kənd təsərrüfatı sahəsində 106,7 faiz, sənaye sahəsində 95,8 faiz, tikinti sahəsində 22,6 faiz, nəqliyyat sahəsində 104,9 faiz, rabitə sahəsində 122,7 faiz, ticarət xidmətləri sahəsində isə 101,4 faiz təşkil etmişdir.

2016-cı ilin yanvar-iyun aylarında rayonda ümumilikdə iqtisadiyyatın istehsal sahələri üzrə 65528,7, xidmət sahələri üzrə isə 35859,8 min manatlıq məhsul buraxılışı qeydə alınmışdır. Rayon iqtisadiyyatında məhsul buraxılışı həcmində istehsal sahələrinin payı 64,6 faiz, xidmət sahələrinin payı isə 35,4 faiz olmuşdur.

***Rayon Statistika İdarəsi***

*Yaxşılara min rəhmət!*

# Əsl insan, müəllim ömrü yaşadı...

***Bu yaxınlarda dünyasını dəyişmiş təcrübəli pedaqoq, gözəl insan rayonumuzun Qubalı kənd orta məktəbində uzun illər dil-ədəbiyyat müəllimi işləmiş Fazil Tağıyev haqqında kimə yaxınlaşıb söhbət etdiksə ürəkdən gələn hərarətli, xoş sözlərlə onu yad etdilər. "Fazil müəllim bizə dərs deyib, gözəl müəllim idi, yaxşı insan idi", "Fazil müəllim ədəbiyyatımızın mahir bilicisi və təbliğatçısı idi", "Ona canlı ensiklopediya da demək olardı" kimi sözləri vaxtilə mərhum Fazil müəllimin dərs dediyi yetirmələrinin dilindən eşitdik. Onun yetirmələrindən isə dövlət qulluğunda çalışan da var, məktəb direktoru, icra nümayəndəsi, zavod direktoru, şirkət rəisi işləyənlər də.***



İstər şagirdlərinin, istər kənd sakinlərinin, el-obanın məhəbbətini qazanmış Fazil Kazım oğlu Tağıyev 1938-ci ildə keçmiş Şamaxı (indiki Hacıqabul) rayonunun Qubalı kəndində kolxozçu ailəsində anadan olmuşdur. Elə buradaca qeyd etmək yerinə düşər ki, Qubalı kəndi Pirsaat çayının əhatəsində, hər tərəfdən yaşıllığa qərq olmuş, füsunkar təbiətə malik dağların qoynunda yerləşir. Bu kəndin insanları zəhmətlə, alın təri ilə çörək qazanan insanlardır

Fazil müəllim ibtidai təhsilini Qubalı kəndində almış, sonra Tava kənd yeddiillik məktəbində təhsilini davam etdirmiş, 1952-ci ildə Göyçay Pedaqoji Texnikumuna daxil olmuş, 1956-cı ildə texnikumu bitirmişdir. Fazil müəllim əmək fəaliyyətinə 1956-cı ildə Cəngən, 1958-ci ildə isə Tava kənd məktəblərində ibtidai sinif müəllimi kimi başlamış, ana dilimizin saflığını, zənginliyini, Azərbaycan dilinin qrammatikasını el balalarına həvəslə tədris etmişdir. Vaxt keçdikcə gənc pedaqoq Fazil Tağıyevin qəlbində müqəddəs müəllimlik peşəsinə məhəbbət artdığını hiss edirdi və onun ürəyində ali təhsil almaq arzusu qüvvətlənirdi. Nəhayət, onun bu arzusu reallaşdı. 1962-ci ildə sənədlərini Azərbaycan Dövlət Pedaqoji İnstitutuna (indiki Pedaqoji Universitet) verən Fazil Tağıyev elə həmin il qiyabi şöbədə müvəffəqiyyətlə qəbul imtahanlarını verdi və ali məktəbə daxil oldu. İşləyə-işləyə təhsil alan Fazil müəllim 1968-ci ildə bu ali təhsil ocağını Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə bitirmişdir.

Fazil Tağıyev 1975-1980-cı illərdə Tava kəndində, 1980-1994-cü llərdə Qubalı kənd ümumi (8 illik) orta məktəbində direktor işləmişdir. 1994-2011-ci illərdə isə Qubalı kənd məktəbində el balalarına ədəbiyyat fənnini məhəbbətlə tədris etmişdir.

Fazil Tağıyev səhhəti ilə əlaqədar 2011-ci ildə təqaüdə çıxmışdı. Kənd sakinləri söyləyirlər ki, hətta təqaüdə çıxdıqdan sonra da Fazil müəllimi Şamaxıda, Hacıqabulda, Şirvan şəhərində rəsmi və qeyri rəsmi məclislərə fəxri qonaq, ağsaqqal kimi dəvət edirdilər. Kənd sakinlərinin xeyir-şərində fəal iştirak edirdi. Kənd camaatı onu da minnətdarlıq hissi ilə xatırlayır ki, Fazil müəllim bir pedaqoq, məktəb direktoru, ziyalı kimi kəndin rayonla bağlı problemi olduqda, o şəxsi nüfuzundan istifadə edib bu problemin qısa müddətdə həllinə nail olurdu. O, mehriban ailə sahibi, qayğıkeş ata, xoşbəxt ziyalı, qeyrətli vətəndaş, məğrur insan idi. Oğlu Akif müəllim söhbət edir ki, atam həyatının son gününə qədər səliqə ilə geyinərdi, bir ata kimi biz övladlar onun zəhmindən, zabitəsindən çəkinərdik, şagirdlərinə olduğu kimi bizə qarşı da tələbkar idi. Məhəmməd peyğəmbərin "Beşikdən qəbrə qədər oxumalı!" kəlamını həmişə bizə təlqin edirdi. O, həmişə oxuyurdu, mütaliəsi zəngin idi. Məhz buna görə nitq qabiliyyəti də yaxşı idi. Bir dəfə həmyerlimiz tarixi romanlar müəllifi, yazıçı Əzizə xanım Cəfərzadənin yanında görkəmli şair Bəxtiyar Vahabzadə atama qulaq asdıqdan sonra Əzizə xanımdan soruşmuşdu:

-Bu müəllim hansı ali məktəbdə dərs deyir?

Əzizə xanım gülümsəyərək:

-Ucqar dağ kəndində-demişdi.

Bəli, yaxşı adamlar haqqında söylənilən xatirələr də özləri kimi işıqlı, nurlu olur.

50 ildən çox pedaqoji fəaliyyətlə məşğul olmuş gözəl ziyalı, təcrübəli pedaqoq, təhsil fədaisi, qayğıkeş insan Fazil Kazım oğlu Tağıyevin əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

***Nazim Fətixanoğlu***



# Müstəqillik xalqımızın böyük nailiyyəti və milli sərvətidir

***Dövlət müstəqilliyinin 25 illiyi rayonumuzun təhsil müəssisələrində təntənə ilə qeyd olunmuşdur***

18 oktyabr Müstəqillik günü ilə bağlı şəhər 9 saylı tam orta məktəbdə tədbir keçirildi. Ölməz şairimiz Məmməd Arazın "Azərbaycan-dünyam mənim" şerinin səslənməsi ilə başlanan tədbirdə dövlət müstəqilliyinin xalqımızın tarixi nailiyyəti olmasından danışıldı. Qeyd edildi ki, xalqın milli sərvəti olan müstəqillin qorunması, onun əldə edilməsindən qat-qat çətindir. Odur ki, hər bir Azərbaycan vətəndaşı müstəqilliyin qədrini bilməli, ölkəmizin tərəqqisi və inkişafı üçün əlindən gələni əsirgəməməlidir.

Şagirdlərin ifasında səslənən mahnılar, şerlər tədbiri daha da rəngarəng etdi. VII sinif şagirdi Gülər Mahmudovanın ifasında "Sarı gəlin" rəqsi alqışlarla qarşılandı.

Tədbir dünya şöhrətli müğənnimiz Müslüm Maqomayevin ifasında səslənən "Azərbaycan" mahnısının sədaları ilə yekunlaşdı.

Sonda müstəqilliyimizin 25 illiyi münasibəti ilə məktəbdə keçirilmiş inşa, şeir, rəsm müsabiqələrinin qalibləri mükafatlandırıldı.

***A.Piriyeva,***
***məktəbin sinifdənxaric və dərsdənkənar işlər üzrə təşkilatçısı***

(davamı səh. 4-də)

# HACIQABUL

№ 22 (656) 20 oktyabr 2016-cı il


# Kikboksçularımızın yeni qələbəsi



*Bu günlərdə Tərtər rayonunda ulu öndər, ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş kikboks idman növü üzrə zonalararası açıq zona birinciliyi keçirildi.*

Yarışlarda Şirvan şəhər, Hacıqabul, Şəmkir, Goranboy, Tərtər rayonlarından olan idmançılar iştirak edirdi.

Bu yarışlarda rayonumuzun kikboksçuları uğurlu nəticələr əldə edərək rayonumuzun idman şərəfini layiqincə qorudular.

56 kq çəki dərəcəsində Əlikram Hüseynov və 48 kq çəki dərəcəsində Nadirxan İbrahimli I yerin, 29 kq çəki dərəcəsində Əli Quliyev və 25 kq çəki dərəcəsində Famil İmanov II yerin qalibləri olaraq rayonumuzun idman şərəfini layiqincə qoruyub saxlamışlar.

Mən isə Azərbaycan Respublikası Kikboksinq Federasiyası rəhbərliyi tərəfindən fəxri fərmanla təltif olundum.

İdmançılarımızı təbrik edir, onlara gələcək yarışlarda uğurlu qələbələr arzu edirik.

***Bədəl Bədəlov,***
***rayon kikboks idman klubunun baş təlimatçısı***

# "Uşaq və gənclərin ən yaxşı yaradıcılıq işləri" respublika müsabiqəsinin rayon mərhələsi sona çatdı



Rayon Təhsil Şöbəsi və TİAHİ rayon Komitəsinin birgə təşkilatçılığı ilə şəhər 1 saylı tam orta məktəbdə "Uşaq və gənclərin ən yaxşı yaradıcılıq işləri" respublika müsabiqəsinin rayon mərhələsi keçirilmişdir. Müsabiqənin rayon mərhələsində şəhərimizin ümumtəhsil məktəblərinin şagirdləri və məktəbdənkənar təhsil müəssisələrinin dərnək üzvləri iştirak etmişlər. İştirakçılar müsabiqədə dekorativ tətbiqi sənət və dizayn incəsənət növləri üzrə müxtəlif əl işləri təqdim etmişlər. Müsabiqənin gedişini tənzimləmək məqsədilə münsiflər heyəti yaradılmışdır. Təqdim olunan əl işləri münsiflər heyəti tərəfindən dəyərləndirilmiş və müsabiqə qalibləri müəyyən olunmuşdur.

Müsabiqədə qalib gələn məktəbli şagirdlər və dərnək üzvləri rayon Təhsil Şöbəsi və TİAHİ rayon komitəsi tərəfindən Diplom və qiymətli hədiyyələrlə təltif edilmişlər.

Müsabiqə qaliblərinin əl işləri Estetik Tərbiyə üzrə Respublika Tədris Metodik Mərkəzinin Təsviri Sənət Qalereyasına təqdim ediləcəkdir.

İnanırıq ki, rayonumuzun uşaq və gənclərinin ən yaxşı yaradıcılıq işləri respublika müsabiqəsində layiqli yer tutacaqdır.

***Kifayət Əmirbəyova,***
***TİAHİ rayon Komitəsinin sədri***

# Əbədilik qazanmış Müstəqilliyimiz

*3 saylı Muğan qəsəbə, 6 saylı Navahı, 12 saylı Qızılburun, 19 saylı Qarasu, 23 saylı Şorbaçı, 27 saylı Paşalı kənd kitabxana filiallarında 18 oktyabr Dövlət Müstəqilliyinin 25 illiyi münasibəti ilə "Müstəqilliyimiz əbədidir", "18 oktyabr Dövlət Müstəqilliyi günü", "Müstəqil dövlətimiz" adlı sərgilər təşkil olunmuş, məruzələr oxunmuş, dəyirmi masalar keçirilmişdir.Mərkəzi kitabxananın Xidmət və Uşaq şöbəsi 4 saylı tam orta məktəbdə, Rəncbər kənd kitabxana filalı kənd məktəbində kitab sərgisi açaraq, şeir gecəsi keçirmişlər.*

24 saylı şəhər kitabxana filialı Səxavət Rüstəmov adına 7 saylı tam orta məktəbdə müstəqilliyimizin ildönümünə həsr olunmuş dəyirmi masa təşkil etmişdir.

Mərkəzi kitabxanada "Müstəqilliyimiz əbədidir" adlı sərgi təşkil olunaraq, məruzələr oxunmuşdur. Tədbiri giriş sözü ilə açan MKS-nin direktor əvəzi Dövran Həsənov Azərbaycanın müstəqilliyinin qorunub saxlanılmasında ümummilli lider Heydər Əliyevin danılmaz xidmətləri oduğunu vurğulamış,1991-ci il oktyabrın 18-də Azərbaycan Xalq Cümhuriyyətinin varisi olaraq öz dövlət müstəqilliyini bərpa etməsi istiqamətində dövlətin keçdiyi çətin, lakin şərəfli yoldan danışmışdır.

Tədbirin sonunda Azərbaycanın dövlət müstəqilliyinə həsr olunmuş videoçarx nümayiş olunmuşdur.

***Elmira İbrahimova,***
***Mərkəzi kitabxananın şöbə müdiri***

# Xüsusi qayğıya ehtiyacı olan uşaqlarla inkişafetdirici tədbir keçirildi



Bu günlərdə "Lalə" uşaq bağçasında rayon Uşaq və Ailələrə Dəstək Mərkəzindən bəhrələnən uşaqların iştirakı ilə inkişafetdirici oyunlardan ibarət tədbir keçirilmişdir. Tədbirdə "Lalə" uşaq bağçasının və UADM-dan bəhrələnən sağlamlıq imkanları məhdud uşaqlar iştirak edirdilər. Tədbiri keçirməkdə məqsəd uşaqların asudə vaxtlarının səmərəli keçirilməsi və cəmiyyətə inteqrasiya edilməsini təmin etmək idi.

Uşaqlar üçün "Addım-addım", "Manealəri keç", "Rəqəmləri tanıyaq", "Tuneli keçməklə hədəfə çatmaq" və s. kimi inkişafetdirici oyunlar təşkil edilmişdi. Oyunlarda fəallıq göstərən "Ay" və "Ulduz" komandalarının uşaqlarına sonda hədiyyələr paylanıldı.

***Aynur Qasımzadə,***
***rayon Uşaq və Ailələrə Dəstək Mərkəzinin direktoru***

# Müstəqillik xalqımızın böyük nailiyyəti və milli sərvətidir

## *Dövlət müstəqilliyinin 25 illiyi rayonumuzun təhsil müəssisələrində təntənə ilə qeyd olunmuşdur*

**(əvvəli səh. 3-də)**

***Şəhər 4 saylı tam orta məktəbdə 18 Oktyabr Müstəqillik gününə həsr edilmiş dəyirmi masa keçirildi. Tədbiri məktəbin direktoru Hüseyn İbrahimov açaraq məktəb kollektivini bayram münasibəti ilə təbrik etdi. Respublikamızın müstəqil dövlət olduğu günə qədər keçdiyi əzablı, əziyyətli və çətin günlərdən danışdı.***

Məktəbin tarix müəllimi İradə İbrahimova çıxış edərək ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı və onun məqsədyönlü fəaliyyəti nəticəsində müstəqilliyimizin əbədi və dönməz olduğunu qeyd etdi.

Sonda azadlıq mübarizəsi mücahidlərinə həsr olunmuş videoçarx nümayiş olundu.

***M.Məmmədova,***
***Məktəbin sinifdənxaric işlər üzrə direktor müavini***

***



Qarasu kənd tam orta məktəbində də müstəqilliyimizin 25 illik yubileyi böyük coşqu və təntənə ilə qeyd olundu. Məktəbimizin şagirdləri həvəslə "Müstəqilliyimiz əbədidir", mövzusunda inşa yazı müsabiqəsində," 25 yaşlı müstəqil Azərbaycan" mövzusunda dəyirmi masada, "Yaşa Azərbaycanım" adlı şeir müsabiqəsində, "Azərbaycan mənim gözümlə" devizi altında rəsm müsabiqəsində və "25 yaşın mübarək, mənim müstəqil Azərbaycanım" adlı ədəbi-bədii kompozisiyada iştirak etdilər.

Keçirilən tədbirlərdə IIb,Vb,VIb, IXa, Xa sinif şagirdləri daha çox fəallıq göstərdilər.

Müstəqil Azərbaycanın azad vətəndaşları olduqlarını və gələcəyin qurucuları kimi özlərini hiss etdiklərini dilə gətirən şagirdlər daha yaxşı oxuyacaqlarını, doğma Azərbaycanımızın bayrağını daim uca tutacaqlarına və layiqli övlad olacaqlarına söz verdilər.

***N.Hüseynova,***
***Qarasu kənd tam orta məktəbinin təşkilatçı-müavini***

***



18 oktyabr Müstəqillik günü ilə əlaqədar Kolanı kənd tam orta məktəbində dəyirmi masa keçirilmişdir. Məktəbin tarix müəllimi M.Nağıyev müstəqillik gününün tarixi əhəmiyyətindən danışmışdır. Şagirdlərdən Yusif Qasımov,Güldəstə Hüseynova mövzu ətrafında fikirlərini bölüşmüş, müəllimlərdən Xuraman Rəsulova,Nəsib Səmədov, Əliağa Əliyev çıxış edərək bildirmişlər ki, 18 oktyabr 1993-cü ildə Azərbaycan Ali Soveti Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul edib. Bununla da Azərbaycan dünyada suveren dövlət kimi tanınıb. Tədbir mövzu ətrafında müzakirələrlə yekunlaşmışdır.

***Rasimə Novruzova,***
***Kolanı kənd tam orta məktəbinin UBR-i***

## Elan

2010-cu ildə Hacıqabul şəhər sakini Pənahov Pənah İzzətalı oğlunun adına verilmiş A-271314 nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

Rayon Təhsil Şöbəsinin müdiri Şükür Məmmədov və kollektivi şəhər 5 saylı tam orta məktəbin sabiq müəllimi

**QULİYEVA LUMU YAQUB qızının**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə, əzizlərinə dərin hüznlə başsağlığı verirlər.


**HACIQABUL**

**Baş redaktor:** Xuraman Feyruzqızı

**Həmtəsisçi:** Qəzetin jurnalist kollektivi

Qəzet "Hacıqabul" qəzetinin kompyuter mərkəzində yığılmışdır, "Son dakika MMC" mətbəəsində çap olunmuşdur

Kapital Bank Hacıqabul filialı
İndeks: 66975
Lisenziya: № 022579

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**Ünvan:** Hacıqabul şəhəri, İ.Qayıbov küçəsi 4.
**Tel:** 4-32-00,
**Tiraj:** 1200

Biz sülhə səs veririk

Rayon MKS -nın 2 saylı şəhər kitabxana filialı və şəhər 1 saylı tam orta məktəbin birğə təşkilatçılığı ilə 21 Sentyabr Beynəlxalq Sülh ğününə həsr olunmuş" Mən Sülhə səs verirəm" adlı şeir müsabiqəsi keçirilmişdir.

Müsabiqədə 1 saylı tam orta məktəbin 5, 6 ,7, 8 - ci sinif şağirdləri iştirak etmişlər. Məktəblilər sülhə, azadlığa həsr olunmuş şeirlər söyləmişlər. Münsiflər heyəti tərəfindən I yerə Ağayev Sadiq , II yerə Umudlu Cavidan, III yerə Salmanova Təranə, IV yerə Quliyeva Aytac layiq ğörülmüşlər. Sonda qaliblərə hədiyyələr verilmişdir.

Şəhla Salmanova,
şəhər MKS -nın 2 saylı kitabxana filialının müdiri

# 2016-cı ilin yanvar-iyun aylarında Hacıqabul rayonunda ticarətin inkişafı

Hacıqabul rayonunda ticarət və xidmət şəbəkələrinin genişlənməsi nəticəsində son illərdə olduğu kimi 2016-cı ilin yanvar-iyun aylarında da ticarətin göstəriciləri əvvəlki illərlə müqayisədə əhəmiyyətli dərəcədə yüksəlmişdir.

Belə ki, 2016-cı ilin yanvar-iyun aylarında Hacıqabul rayonunda ticarət sektorunda 9 ticarət müəssisəsi, 218 fərdi sahibkar, 1 bazar və yarmarka fəaliyyət göstərmişdir.

2016-cı ilin yanvar-iyun aylarında Hacıqabul rayonu üzrə pərakəndə əmtəə dövriyyəsinin həcmi 94310,0 min manat təşkil etmişdir.Rayon üzrə pərakəndə əmtəə dövriyyəsinin ötən ilin müvafiq dövrünə müqayisəli qiymətlərlə fiziki həcm indeksi 101,4 faiz olmuşdur.Əmtəə dövriyyəsinin ümumi həcmində ərzaq mallarının xüsusi çəkisi 52,1 faiz, qeyri-ərzaq məhsullarının xüsusi çəkisi isə 47,9 faiz təşkil etmişdir.Başqa sözlə, pərakəndə əmtəə dövriyyəsinin həcmində ərzaq mallarının payı 49100,0 min manat, qeyri-ərzaq mallarının payı isə 45210,0 min manat olmuşdur.Ötən ilin müvafiq dövrünə müqayisəli qiymətlərlə fiziki həcm indeksi göstəricisi ərzaq malları üzrə 101,7 faiz, qeyri-ərzaq malları üzrə isə 100,5 faiz təşkil etmişdir.

Rayon üzrə pərakəndə əmtəə dövriyyəsinin həcmində ərzaq mallarından çörək və bulka məmulatları (6,2 faiz), qənnadı məmulatları (8,6 faiz), ət və quş əti məhsulları (10,6 faiz), kartof və tərəvəz (5,4 faiz), kərə və bitki yağları (5,7 faiz), qeyri-ərzaq mallarından- tikinti materialları (7,4 faiz), benzin və digər yanacaqlar (12,1 faiz), dərman-tibbi təyinatlı mallar (3,2 faiz), elektrik məişət malları (4,8 faiz), paltar-geyim (5,4 faiz), ayaqqabılar (2,8 faiz), dəftərxana malları (3,2 faiz) daha böyük xüsusi çəkiyə malik olmuşdur.

2016-cı ilin birinci yarısında respublika üzrə əmtəə dövriyyəsinin ümumi həcmində Hacıqabul rayonunun payı 0,7 faiz təşkil etmişdir.Rayonun daxil olduğu Aran iqtisadi bölgəsi üzrə pərakəndə əmtəə dövriyyəsinin həcmində Hacıqabulun əmtəə dövriyyəsinin xüsusi çəkisi isə 5,1 faiz olmuşdur.

Rayon üzrə pərakəndə əmtəə dövriyyəsinin həcmində hüquqi şəxslərin payı 8,2 faiz və ya 7727,0 min manat, fiziki şəxslərin payı isə 91,8 faiz və ya 86583,0 min manat olmuşdur.Rayon ərazisində hüquqi şəxslər üzrə pərakəndə əmtəə dövriyyəsinin ötən ilin müvafiq dövrünə müqayisəli qiymətlərlə fiziki həcm indeksi 83,6 faiz, fiziki şəxslər üzrə isə 102,1 faiz olmuşdur.Hüquqi şəxslərin ticarət şəbəkələrindən alınmış istehlak mallarının həcmində ərzaq mallarının payı qeydə alınmamış, qeyri-ərzaq mallarının payı isə 100,0 faiz təşkil etmişdir.Fiziki şəxslər tərəfindən satışı realizə olunmuş malların 56,7 faizi və ya 49100,0 min manatı ərzaq, 43,3 faizi və ya 37483,0 min manatı isə qeyri-ərzaq məhsulları olmuşdur.Ötən ilin müvafiq dövrünə müqayisəli qiymətlərlə fiziki həcm indeksi göstəricisi rayon üzrə fiziki şəxslər tərəfindən pərakəndə qaydada satılmış ərzaq malları üçün 101,7 faiz, qeyri-ərzaq malları üçün isə 102,5 faiz təşkil etmişdir.

Hacıqabul rayonunda qeydə alınmış bazar və yarmarkalarda fəaliyyət göstərən fiziki şəxslər üzrə əmtəə dövriyyəsinin həcmi 4155,0 min manat olmuşdur ki, bu da rayon üzrə ümumi pərakəndə əmtəə dövriyyəsinin 4,4 faizini təşkil edir.2016-cı ilin yanvar-iyun aylarında Hacıqabul rayonu üzrə bazar və yarmarkalarda qeydə alınmış pərakəndə əmtəə dövriyyəsinin 81,4 faizi və ya 3381,0 min manatı ərzaq mallarının, 18,6 faizi və ya 774,0 min manatı qeyri-ərzaq mallarının payına düşür.

2016-cı ilin yanvar-iyun aylarında Hacıqabul rayonunda ticarətlə məşğul olan digər fiziki şəxslər tərəfindən 82428,0 min manatlıq müxtəlif istehlak malları satılmışdır ki, bu da rayon üzrə əmtəə dövriyyəsinin 87,4 faizini təşkil edir.

2016-cı ilin birinci yarısında Hacıqabulda hər sakinə düşən pərakəndə əmtəə dövriyyəsinin həcmi 1268,7 manat olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 13,1 faiz çoxdur.Hər sakinə düşən ərzaq malları dövriyyəsi 660,5 manat, qeyri-ərzaq malları dövriyyəsi isə 608,2 manat təşkil etmişdir.

Hesabat dövrünün sonuna rayonun pərakəndə ticarət şəbəkələrində 10252,6 min manatlıq əmtəə məhsulları qalığı qeydə alınmışdır. Bu məhsulların 2,1 faizi və ya 214,6 min manatı hüquqi şəxslərin, 78,6 faizi və ya 8058,0 min manatı fiziki şəxslərin, 19,3 faizi və ya 1980,0 min manatı isə bazar və yarmarkaların anbarlarında qeydə alınmışdır.

2016-cı ilin yanvar-iyun aylarında rayonda topdansatış ticarət şəbəkəsilə 799,8 min manatlıq əmtəə məhsulları satılmışdır.Topdansatış şəbəkədə satılmış malların 36,5 faizi və ya 291,8 min manatı hüquqi, 63,5 faizi və ya 508,0 min manatı isə fiziki şəxslər tərəfindən realizə olunmuşdur.

Hesabat dövründə rayonda topdansatış ticarət dövriyyəsinin həcmi ötən ilin müvafiq dövrünə nisbətən 5,5 faiz azalmışdır.Topdansatış ticarət dövriyyəsinin ötən ilin müvafiq dövrünə nisbətən faktiki qiymətlərlə fiziki həcm indeksi hüquqi şəxslərdə 76,4 faiz, fiziki şəxslərdə isə 109,5 faiz təşkil etmişdir.2016-cı ilin birinci yarısının sonuna rayonda topdansatış şəbəkəsi anbarlarında 785,2 min manatlıq əmtəə qalığı qeydə alınmışdır.

***Hacıqabul Rayon Statistika İdarəsi***